**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**XAQANİ TAHİR OĞLU MƏMMƏDOV**

# DÖVLƏT BÜDCƏSİ XƏRCLƏRİNİN FORMALAŞMASININ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**İxtisas: 5301.01. – Daxili fiskal siyasət və dövlət maliyyəsi**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**AVTOREFERATI**

**BAKI-2014**

Dissertasiya işi Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Elnur Məhəmməd oğlu Sadıqov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Mirələm Xası oğlu Həsənli**

iqtisad elmləri namizədi, dosent
**Xanoğlan Əndəlif oğlu Hüseynov**

**Aparıcı təşkilat:** Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu

Dissertasiyanın müdafiəsi "30" aprel 2014-cü il, saat $14^{oo}$ -da Azərbaycan Dövlət İqtisad Universitetinin D 02.051 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az 1001. Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6, Azərbaycan Dövlət İqtisad Universitetinin dissertasiya şurası.

Dissertasiya işi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "19" mart 2014-ci ildə göndərilmişdir.

**Dissertasiya şurasının**
**elmi katibi, i.ü.f.d.** **dos. Z.İ.Mustafayeva**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı:** XX-əsrin 90-cı illərindən başlayaraq keçən son dövrlər ərzində bazar iqtisadiyyatı şəraitində respublikamızda maliyyə sektorunda həyata keçirilən davamlı iqtisadi islahatlar ümumi maliyyə resurslarının, eyni zamanda dövlət büdcəsinin gəlirlərinin ildən-ilə artmasına, büdcə kəsirinin ümumi daxili məhsulda və büdcə xərclərində faizlə payının azalmasına gətirib çıxarmışdır. Məhz bu baxımdan artıq respublikamız postsovet məkanına daxil olan əksər ölkələrdən fərqli olaraq iqtisadi cəhətdən inkişaf etməkdə olan dövlətlər sırasına daxil edilməkdədir. Müasir dünyada büdcə quruculuğu, büdcə sistemi kimi məsələlər ölkənin iqtisadi inkişaf strategiyasının həyata keçirilməsində mühüm rol oynayır.

Müasir dövrdə büdcə mexanizminin təkmilləşdirilməsi prosesi, ölkəmizin sosial-iqtisadi inkişafına nail olmaq üçün dövlətin büdcə siyasətində əsas istiqamət kimi təyin olunmuşdur. Qeyd etmək lazımdır ki, regionlarda və mərkəzdə iqtisadi stabilliyin qorunub saxlanılması uzunmüddətli dövr üçün büdcələrin səmərəliliyinin artırılması zərurətini ortaya çıxarmışdır.

Büdcə sistemində onun xərclərinin də gəlirlər kimi müəyyən şərtlərə əsaslandığını qeyd etmək lazımdır. Xərclərin gəlirlərdən fərqli olaraq istiqamətlərinin dəyişilməsi daha dinamik xarakter daşıyır. Məsələn, ölkədə iqtisadi və siyasi vəziyyət dəyişəndə büdcə xərcləri hərbi, iqtisadi-siyasi, sosial məqsədlərin mənafeyinə uyğunlaşdırıla bilər. Belə ki, ümumi büdcənin quruluşunda xərclərin hərbi və sosial məqsədlərə bölünməsi nisbətləri (o cümlədən, iqtisadi böhranlar, hərbi münaqişələr) dəyişkən ənənələrə malik ola bilir.

Onu da qeyd etmək lazımdır ki, büdcə xərclərinin idarə edilməsi dövlət gəlirlərinin idarə edilməsi ilə sıx əlaqəli olduğundan büdcə xərclərinin səmərəli təyinatı üzrə istifadə olunması mütləqdir. Hər bir dövrdə dövlətin qarşısında duran sosial-iqtisadi vəzifələrdən asılı olaraq büdcə xərclərinin tərkibində və quruluşunda müəyyən dəyişikliklər müşahidə olunur.

Dövlət büdcəsi xərclərinin formalaşmasının təkmilləşdirilməsi məsələlərinin tədqiqi aktualdır, elmi və təcrübi cəhətdən mühüm əhəmiyyət kəsb edir.

**Mövzunun öyrənilmə vəziyyəti.** Dövlət büdcəsinin ölkənin iqtisadi inkişafında rolu, o cümlədən dövlət büdcəsinin xərclərinin təkmilləşdirilməsi və s. səmərəliliyinin artırılması problemləri haqqında bir

sıra mühüm nəzəri-konseptual və təcrübi məsələlər dünyanın iqtisadçı alimləri, dünyanın maliyyə təşkilatlarının ekspertləri, eləcə də beynəlxalq bankların tədqiqat mərkəzləri tərəfindən geniş araşdırılmışdır. Respublikamızın iqtisadçı alimlərindən Ş.H.Hacıyev, Z.Ə.Səmədzadə, D.A.Bağırov, M.M.Sadıqov, E.M.Sadıqov, A.F.Musayev, Ə.İ.Bayramov, Ə.M.Abbasov, S.İ.Səfərov, X.M.Meybullayev, B.A.Xankişiyev, Ə.Ə.Ələkbərov, M.X.Həsənli, X.Ə.Hüseynov, A.Ş.Şəkərəliyev, A.M.Kərimov, A.K.Əmiraslanov, Y.H.Həsənli, V.T.Novruzov, Ə.Q.Əlirzayev və başqaları tədqiqat sahəsi üzrə müxtəlif araşdırmalar aparmış və bu yönümdə əhəmiyyətli iqtisadi fikirlər, konseptual ideyalar irəli sürmüşlər.

Bundan başqa dünyanın iqtisadçı alimlərindən J.Stiqlis, İ.Fişer, A.Meltser, M.Fridman, A.Fuqo, K.Broner, P.Kruqman, F.Larren, M.Obsfeld, C.Saks, P.Samuelson, A.Mandell, M.Flemminq, A.Holms, S.İllarionov, A.Abalkin, A.Qodin, V.Qoreqlyad, İ.Padperina, Y.Şveçsov, V.Karlusov, T.Kovaleva, A.Duqelniy, V.Komarov, O.Volkova və s. xüsusi qeyd olunmalıdır. Bu istiqamətdə aparılan elmi-tədqiqat işlərinin praktiki əhəmiyyətini azaltmadan qeyd etmək lazımdır ki, müasir dövrdə dövlət büdcəsi xərclərinin formalaşmasının təkmilləşdirilməsi məsələləri yetərincə tədqiq olunmamışdır.

Qeyd edilənlər tədqiqat mövzusunun aktuallığını göstərməklə yanaşı, onun məqsəd və vəzifələrinin müəyyənləşdirilməsini şərtləndirmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi ölkədə transformasiya proseslərinin dərinləşməsi və müasir bazar iqtisadiyyatı şəraitində dövlət büdcə xərclərinin təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsindən və bu istiqamətlər üzrə siyasətə dair tövsiyyələr hazırlamaqdan ibarətdir. Bu məqsədə nail olmaq üçün tədqiqat işində aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- büdcə xərclərinin formalaşması və istifadəsinin nəzəri-metodoloji əsaslarının tədqiq edilib ümumiləşdirilməsi və müxtəlif nəzəri yanaşmaların sistemləşdirilməsi;
- dövlət büdcə xərclərinin formalaşması münasibətlərinin nəzəri-metodoloji əsaslarının tədqiq edilməsi, təşəkkülü və inkişafı qanunauyğunluqlarını və xüsusi cəhətlərini üzə çıxarmaqla zəruri və məntiqi elmi ümumiləşdirmələrin aparılması;
- müasir qloballaşma şəraitində büdcə xərclərinin təkmilləşdirilməsi istiqamətlərinin öyrənilməsi;

- inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə büdcə xərclərinin idarə edilməsi mexanizminin istiqamətlərinin təhil edilməsi və qiymətləndirilməsi;
- büdcə xərclərinin səmərəli idarə olunması baxımından orta müddətli xərclər strategiyasının Azərbaycanda tətbiqinin qiymətləndirilməsi;
- ölkəmizdə büdcə xərclərinin dövlət tənzimlənməsi prinsipləri, mexanizmləri, vasitələri və prioritetlərini dəyərləndirməklə, onun təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması;
- beynəlxalq təcrübəyə əsaslanaraq büdcə xərclərinin son nəticəyə əsaslanan məqsədli proqramlar əsasında tərtibi və dövlət büdcəsi xərclərinin strukturunda optimal nisbətlərin formalaşdırılması istiqamətində aktual vəzifələrin müəyyənləşdirilməsi və bunlarla əlaqədar tövsiyyələr hazırlanması.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan Respublikasının dövlət büdcəsinin xərcləri təşkil etmişdir.

Dövlət büdcəsi xərclərinin formalaşmasının, büdcə xərclərinin mövcud vəziyyətinin araşdırılması və təkmilləşdirilməsinin perspektiv istiqamətlərinin müəyyən edilməsi məsələləri tədqiqat işinin predmetini təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasını** problemlə bağlı müasir nəzəriyyələr və konsepsiyalar, beynəlxalq səviyyəli, tanınmış alimlərin tədqiqatlarının nəticələri, beynəlxalq miqyasda maliyyə-büdcə münasibətlərinin inkişaf təcrübəsi, eləcə də milli büdcə sisteminin strateji istiqamətləri, eyni zamanda Azərbaycan Respublikasının bu sahə üzrə müvafiq qanunvericilik aktları və hüquqi normativ sənədləri təşkil edilir. Tədqiqat işi dialetik metodologiya və sistemli struktur təhlil, məntiqi ümumiləşdirmə, analitik və statistik təhlil, kompleks və faktorlu təhlil metodlarının köməyi ilə yerinə yetirilmişdir.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin, Dövlət Statistika Komitəsinin, Vergilər Nazirliyinin, Dövlət Neft Fondunun, İqtisadi İnkişaf Nazirliyinin, Dövlət Neft Şirkətinin və s. hesabatları, normativ sənədləri, normativ hüquqi aktları, yerli və xarici sahə üzrə internet saytlarının məlumatları, fərdi şəkildə aparılmış hesabatların nəticələri və s. təşkil edir.

**Tədqiqat işinin elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi müasir dövrdə Azərbaycan Respublikasında bazar iqtisadiyyatı şəraitində dövlət büdcəsi, onun xərclərinin səmərəliliyinin artırılması istiqamətləri kompleks halda tədqiq olunmasından, büdcə xərclərinin formalaş-

masının təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsindən, bu sahədə beynəlxalq təcrübələrə əsaslanaraq elmi-nəzəri ümumiləşdirilmələrin aparılmasından, maliyyə-büdcə sisteminin inkişaf perspektivləri və yollarının müəyyənləşdirilməsi istiqamətində elmi əsaslandırmaların aparılmasından, bu sahədə konseptual təklif və tövsiyyələrin hazırlanmasından ibarətdir.

Dissertasiya işinin elmi yeniliklərinə aşağıdakıları aid etmək olar:

- büdcə xərclərinin formalaşmasının elmi-nəzəri əsasları və bu sahədə dünya təcrübəsi ilə bağlı müvafiq elmi sistemləşdirmələr aparılmış, büdcə xərclərinin formalaşması istiqamətlərinin nəzəri-praktiki əsasları təyin olunmuşdur;
- büdcə xərclərinin tənzimlənməsinin prioritet istiqamətləri müəyyənləşdirilmiş, Azərbaycan Respublikasında büdcə xərclərinin mövcud vəziyyəti təhlil edilərək qiymətləndirilmişdir;
- dövlət büdcə xərclərinin səmərəliliyinin və məqsədyönlülüyünün təmin olunması istiqamətləri əsaslandırılmış, büdcə xərclərinin formalaşdırılmasının təkmilləşdirilməsi sahəsində beynəlxalq təcrübə təhlil olunmuşdur;
- müasir dövrdə büdcə xərclərinin idarə edilməsi prosesi araşdırılmış və xərclərin təkmilləşdirilməsinin əsas istiqamətləri göstərilmişdir;
- ölkədə reallaşdırılan müasir maliyyə-büdcə siyasətinin əsas vəzifələri və onun büdcə xərclərinin təkmilləşdirilməsində rolu qiymətləndirilmişdir;
- müasir dövrdə maliyyə-büdcə sisteminin formalaşma proseslərinin, dövlət büdcəsi xərclərinin makroiqtisadi göstəricilərlə əlaqələndirilməsinin gücləndirilməsi müəyyən edilmişdir.

**Dissertasiya işinin praktiki əhəmiyyəti.** Araşdırma çərçivəsində əldə olunmuş konseptual yanaşmanın, nəticə və təkliflərin faydası onların Azərbaycanda dövlət büdcə sisteminin işlənilməsi, o cümlədən büdcə xərclərinin formalaşdırılmasının tənzimlənməsi istiqamətlərinin elmi-nəzəri metodoloji və təcrübi məsələlərinin həllinə yönəlməsi, büdcə xərclərinin səmərəliliyinin artırılması metodlarının seçilməsi və ölkədə büdcə siyasətinin təkmilləşdirilməsinin əsas istiqamətlərinin elmi cəhətdən əsaslandırılmasında tətbiq olunmasının reallığı ilə əsaslandırılır.

Tədqiqat işinin nəticələrindən maliyyə-büdcə sistemi və büdcə siyasətinin makroiqtisadi aspektlərini tədqiq edən doktorantlar, magistrlər və mütəxəssislər də istifadə edə bilərlər.

Dissertasiya işi büdcə sistemində qanunauyğunluqlar, konseptual prinsiplər və iqtisadi meyillər çərçivəsində ümumiləşdirmələr və təcrübi, eyni zamanda, tətbiqi nəticə və təkliflərə əsaslanan elmi əsər kimi sahəvi iqtisadi fənlər üzrə tədris prosesində də istifadə oluna bilər.

**Tədqiqat işinin aprobasiyası.** Dissertasiya işinin əsas nəzəri müddəaları, aspektləri və nəticələri ölkədə keçirilmiş konfrans və seminarlarda müəllif tərəfindən məruzə edilmişdir. Son illər ərzində dissertasiya işinin əsas məzmununu əhatə edən 7 elmi məqalə və 8 tezis çap olunmuşdur.

**Dissertasiya işinin həcmi və quruluşu.** Dissertasiya girişdən, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya 160 səhifəni əhatə edir.

**Dissertasiya işinin quruluşu**

**GİRİŞ**
**I FƏSİL Dövlət büdcəsi xərclərinin formalaşmasının elmi-metodoloji əsasları**
1.1. Dövlət büdcə xərclərinin təsnifatı, funksiyaları, fəaliyyət mexanizmləri
1.2. Müasir iqtisadi şəraitdə dövlət büdcəsi xərclərinin sosial-iqtisadi mahiyyəti, nəzəri əsasları və rolu
1.3. Dövlət büdcəsi xərclərinin tənzimlənməsi məsələləri
**II FƏSİL. Dövlət büdcə xərclərinin müasir vəziyyətinin tədqiqi**
2.1. Dövlət büdcəsində xərclərin müasir vəziyyəti, kəsir problemi və onun həlli aspektləri
2.2. Dövlət büdcəsi xərclərinin istifadə istiqamətlərinin təhlili
2.3. Büdcə xərclərinin formalaşması və istifadəsi mexanizmləri
**III FƏSİL. Dövlət büdcə xərclərinin formalaşması və istifadəsinin perspektiv istiqamətləri**
3.1. Büdcə xərclərinin səmərəliliyinin artırılması perspektivləri
3.2. Büdcə xərclərinə nəzarətin təkmilləşdirilməsi məsələləri
3.3. İqtisadi inkişaf şəraitində büdcə xərclərinin formalaşdırılmasının və istifadəsinin əsas istiqamətləri
**Nəticə**
**İstifadə olunmuş ədəbiyyat**
**Əlavələr**

## Tədqiqatın əsas məzmunu

### 1. Dövlət büdcəsi xərclərinin formalaşmasının elmi-metodoloji əsasları, sosial-iqtisadi mahiyyəti və tənzimlənməsi məsələləri

Dövlət büdcəsinin xərcləri onun gəlirləri ilə sıx qarşılıqlı əlaqəlidir. Bu qarşılıqlı əlaqə xərclərin gəlirlərlə kəmiyyət uyğunluğunda, eləcə də onların bir-birinə təsirində ifadə olunur. Belə ki, büdcə xərcləri, o cümlədən, büdcəyə daxil olan gəlirlər həddindən artıq limitləşdirilir, lakin büdcə gəlirləri də öz növbəsində dövlətin iqtisadi imkanlarına uyğun təyin edilir. Məhz buna görə də büdcə xərclərini səmərəli istifadə etmək lazımdır ki, onlar cəmiyyət qarşısında duran sosial-iqtisadi vəzifələri yüksək səmərə ilə yerinə yetirilməsini təmin etmiş olsun. Digər tərəfdən, büdcə vəsaitlərindən nəzərdə tutulan qaydada səmərəli istifadə edildikdə büdcə xərcləri büdcə gəlirlərinə əks təsir göstərərək istehsal sahələrinin artmasına, elm və texnikanın inkişafına və s. köməklik göstərir.

Dövlət büdcəsinin əsas funksiyası – ölkənin iqtisadi resurslarının səfərbər edilməsini və səmərəli xərclənməsini təmin etməkdir. Bu funksiya vasitəsilə dövlət iqtisadiyyatın ayrı-ayrı sahələrini maliyyələşdirir, aparıcı və zəruri sahələri himayə edir, əhalinin aztəminatlı qruplarına sosial yardım göstərir, cəmiyyətdə siyasi və iqtisadi stabilliyi qorumağa kömək edən, dövlət idarəetmə və müdafiə təsisatlarının maliyyələşməsini təmin edir və s.

Dövlət büdcəsinin mühüm funksiyalarının həyata keçirilməsi istifadə olunan büdcə və hesabların təsnifatı ilə sıx bağlıdır. Beynəlxalq Valyuta Fondu tərəfindən təsbit olunmuş dövlətin gəlirləri və xərclərinin ətraflı funksional iqtisadi təsnifatı dövlət büdcəsi və hesablarının müqayisəsini aparmaq üçün beynəlxalq standart kimi qəbul olunmuşdur. Büdcə təsnifatının hansı səviyyədə qəbul olunması dövlət büdcəsinin maliyyə intizamı və nəzarəti, səmərəli makroiqtisadi idarəetmə, dövlət vəsaitlərinin səmərəli istifadəsi vasitəsi kimi xidmət göstərməsi göstəricisini səciyyələndirir.

Dövlətin iqtisadi və sosial siyasətinin həyata keçirilməsində vasitələrdən biri maliyyə sisteminin tərkib hissəsi olan büdcə sistemidir. Büdcə sitemi Azərbaycan Respublikasının maliyyə sisteminin mühüm tərkib hissəsi olmaqla ali və yerli dövlət hakimiyyəti orqanlarının funksiyalarının icra olunmasında əsas maliyyə təminatı rolunu oynayır. Büdcə sisteminin qurulması, onun ayrı-ayrı həlqələri arasında maliyyə münasibətlərinin müəyyən edilməsi dövlətin funksiyalarının həyata keçirilməsinə, dövlətin iqtisadi və sosial cəhətdən inkişaf etməsinə xidmət edir. Büdcə sistemi dövlətin iqtisadi, siyasi təşkili ilə müəyyən edilir. Dövlət

büdcəsi və yerli hakimiyyət orqanlarının büdcələri qarşılıqlı əlaqələr və müəyyən maliyyə münasibətləri əsasında tərtib və icra edilir. Büdcə sisteminin qurulması və onlar arasındakı maliyyə münasibətləri müəyyən prinsiplərə əsaslanır. Bu prinsiplər ölkədə büdcə quruculuğunun əsasını təşkil edir. Büdcənin təşkili prinsiplərinin tədqiq edilməsi və öyrənilməsi böyük əhəmiyyətə malikdir.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən və yeni iqtisadi sistemə, bazar iqtisadiyyatına keçdikdən sonra iqtisadiyyatda islahatlar aparılmış, iqtisadiyyatın bir çox sahələrində olduğu kimi dövlətin əsas maliyyə planı olan dövlət büdcəsi yenidən işlənib hazırlanmışdır.

Azərbaycan Respublikası dövlət büdcəsinin özünəməxsus büdcə sistemi, büdcə quruluşu, büdcə hüquqları və büdcə həlqələri mövcuddur və "Büdcə sistemi haqqında" Azərbaycan Respubllikası Qanunu ilə tənzimlənir.

Dövlət büdcəsi, onun fomalaşma mənbələri, xərclərinin istiqamətləri haqqında bəhs etməmək qeyri-mümkün olardı. Dövlətin iqtisadi gücü onun büdcəsində əks olunur. Büdcənin gəlirləri, eyni zamanda gəlirlərlə xərclər arasındakı balans nə qədər mükəmməl olsa dövlət bir o qədər qüdrətli hesab olunur. Büdcənin gəlirlərinin formalaşdırılması, xərclərinin planının tərtib edilməsi hər bir dövlət üçün ən mühüm məsələlərdəndir.

Dövlət büdcəsinin xərclərinə aşağıdakılar daxildir:

- cari xərclər, o cümlədən əmək haqqı, əmək haqqına əlavə, təqaüd və başqa sosial müavinətlər və ödənişlər, malların satın alınması (dövlət) və başqa xidmətlər üzrə xərclər, faiz üzrə ödənişlər, qrantlar, subsidiyalar və cari köçürmələr;
- əsaslı xərclər, o cümlədən əsas vəsaitlərin alınması, kapital qoyuluşları və dövlət istiqrazlarının alınması;
- kreditlər üzrə borclara, faizlərə xidmət xərcləri və layihələrdə pay iştirakı.

Büdcə xərcləri müvafiq büdcə təsnifatına uyğun olaraq təsdiq olunmuş büdcə ayırmaları həddində cari, investisiya, innovasiya və digər xərclərin maliyyələşdirilməsinə yönəldilir. Hər ilin dövlət büdcəsində təsdiq edilmiş ayırmalar həmin məqsədlər üçün xərclərin ən yüksək səviyyəsini göstərir. İl ərzində faktiki xərclər bu məbləğdən çox ola bilməz. Hər ilin dövlət büdcəsi üzrə təsdiq edilmiş ayırmaların icra müddəti büdcə ilinin sonunda başa çatır.

Azərbaycan Respublikasının dövlət və idarəetmə aparatının saxlanması xərcləri, elm xərcləri, müdafiə xərcləri, hüquq-mühafizə orqan-

larının xərcləri, təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat xərcləri, mədəniyyət, incəsənət, idman, mənzil-кommunal xərcləri, dövlət investisiya xərcləri, iqtisadi fəaliyyətlə bağlı olan xərclər, beynəlxalq təşкilatlara üzvlüк haqqı, dövlətin xarici borcları üzrə xərclər, banкlarla hesablaşma xərcləri, eкologiya ilə bağlı xərclər və s. dövlət büdcəsi xərcləridir. Dövlət büdcəsinin xərcləri mərкəzləşdirilmiş və yerli xərclərə bölünür. Onlar dövlət büdcəsi haqqında qanun müzaкirə və təsdiq olunarкən müəyyənləşdirilir.

Dövlət xərclərinin təsnifatı daha mükəmməl formada xərc proqramları hazırlamağa, onların büdcə parametrlərinə daha yaxşı uyğunlaşdırılmasının təmin olunmasına kömək edir. Buna görə də dövlət xərclərinin təsnifatı həm də dövlət xərclərini iqtisadi cəhətdən dəqiq təhlil etmək baxımından zəruri və əhəmiyyətlidir. Dövlət xərclərinin təsnifləşdirilməsinin bir neçə geniş yayılmış modeli var: idarəetmə prinsiplərinə görə, funksional təyinatına görə, iqtisadi mahiyyətinə görə.

Son bir neçə ildə Azərbaycan Respublikasının ortamüddətli maliyyə siyasətinin tərkib hissəsi olmaqla büdcə siyasəti ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrinin inkişafını təmin edən dövlət proqramlarının həyata keçirilməsi prosesi ilə əlaqələndirilir. Bu baxımdan son dövrlər həyata keçirilən maliyyə siyasətinin aşağıdakı prioritet istiqamətlərini xüsusi qeyd etmək lazımdır:

- Ölkənin daxili potensialından və büdcə resurslarından səmərəli istifadə etməklə, iqtisadi regionlar üzrə xüsusi əhəmiyyət kəsb edən sahələrin inkişafını, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsini, yerli sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsini, həyat səviyyəsinin daha da yaxşılaşdırılmasını və ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsi;
- Kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi məqsədilə hazırlanmış proqramlarda büdcə sisteminin rolunun və bu istiqamətdə vəsait qoyuluşunun artırılması, büdcə mexanizmlərinin təkmilləşdirilməsi vasitəsilə büdcə proqnozlaşdırılmasının və büdcə xərclərinin səmərəli istifadəsinin artırılması;
- “Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı” çərçivəsində büdcə vəsaitləri hesabına həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsi prosesinin təmin olunması və s.

İqtisadi artım investisiyaların cəlb edilməsi ilə bağlı olduğundan dövlət investisiya fondları yaratmaq və müvafiq vəsait toplamaq məcburiyyətində qalır.

Buna investisiya xarakterli xərcləri göstərmək olar. Dövlətin ümumidarəçilik xərcləri isə istehlak xarakterlidir. Dövlətin vəzifəsi dövlət idarəçiliyinin təsir gücünü artırmaqdır. İdarəetmə aparatı mobil, səmərəli, ucuz mexanizm vəziyyətinə çatdırılmalıdır. Bu isə idarəetmə xərclərinə qənaət olunmasını tələb edir.

Xərclərin idarəetmə əlamətlərinə görə təsnifat modeli dövlət xərclərinin icra orqanlarına, onların funksiya və hüquqi tənzimləyicilərinə uyğun olaraq dərəcələnməsidir. Dövlət büdcəsindən xərclər dövlət xidmətlərini yerinə yetirən müxtəlif strukturlar arasında idarəçilik təsnifatına müvafiq şəkildə bölünür. Bu təsnifat növü bölgü prinsiplərinə görə bir çox hallarda «xərclərin idarəçilik təsnifatı» adlanır.

İnvestisiya xərclərinin rolu iqtisadiyyatda istehsal normasının yüksəlməsi ilə məhdudlaşmır, bu xərclər eyni zamanda istehsal potensialını da çoxaldır. Buradan aydın olur ki, investisiyaların təmin etdiyi səmərə ötəri deyil, uzunmüddətli xarakter daşıyır.

İnvestisiya xərclərini qeyd edərkən iki məqama aydınlıq gətirmək lazımdır. Birincisi, hansı xərcləri investisiya xərcləri hesab etmək, ikincisi, hansı investisiya xərclərini dövlət investisiyasına aid etmək məsələsidir. İnvestisiya xərclərinin tərkibləri müxtəlif ölkələrdə bir-birindən fərqlənir, lakin qeyd etdiyimiz kimi, onların birləşdirici, ümumi xüsusiyyəti ondan ibarətdir ki, dövlətin investisiya xərcləri zaman keçdikcə artıqlamaqla ödənir və əlavə gəlir gətirməyə başlayır. Yəni bu xərclər renta-bellidir. Onların gerçəkləşdirilməsi milli gəliri artıraraq gələcəkdə dövlət büdcəsini əlavə gəlir vəsaiti ilə təmin edir. Dövlətin maliyyə fəaliyyətinin başlıca vəzifələrindən birinin dövlət xərclərini artırmaq olduğunu nəzərə alsaq, investisiyaların və onların çoxaldılmasının nə qədər böyük əhəmiyyəti olduğunu görmək mümkündür.

Müasir şəraitdə istehsala və xidmətlərə qoyulan, yeni istehsal sahələri yaradılmasına, eləcə də mövcud sahələrin genişləndirilməsinə və modernləşdirilməsinə yönələn xərclər investisiya xərcləri hesab olunur. Bütövlükdə, əlavə gəlir əldə etmək üçün gerçəkləşdirilən xərclər investisiya xərcləri olmaqla, əsasən, istehsal və xidmət sahələrini əhatə edir. İstehsal və qeyri-istehsal infrastrukturla, kommunikasiya və rabitə ilə, yol çəkilişi ilə, habelə iri istehsal layihələrinin yerinə yetirilməsi ilə bağlı olan investisiyalar dövlət vəsaiti hesabına maliyyələşir.

Hansı investisiyaları dövlət investisiya xərcləri hesab etməli? - Bunu müzakirə edən maliyyəçilər dövlət investisiyalarına bunları aid edirlər:

- birbaşa dövlətin gerçəkləşdirdiyi investisiyalar;

- dövlətin maliyyə yardımı və iştirakı ilə gerçəkləşdirilən investisiyalar;
- dövlətin yaradıb idarə etdiyi kredit təşkilatlarının hesabları vasitəsilə həyata keçirilən investisiyalar;
- müharibə dağıntılarını, təbii fəlakətlərin nəticələrini aradan qaldırmaq üçün dövlətin həyata keçirdiyi investisiyalar və s.

Büdcə xərcləri büdcədən maliyyələşdirmə vasitəsilə həyata keçirilir və büdcədən maliyyələşdirmə isə müəyyən prinsiplərə əsaslanır. Büdcədən maliyyələşdirilmənin prinsipləri büdcə xərclərinin maliyyələşdirilməsinin səmərəli təşkilində əhəmiyyətli rol oynayır.

Büdcə xərclərinin həcm və quruluşunun səmərəli tənzimlənməsi ölkədə makroiqtisadi sabitliyin səviyyəsinə çox ciddi təsir göstərir. Ona görə də bu sabitliyin qorunub saxlanılması üçün xərclərin tənzimlənməsinin prioritet istiqamətləri dəqiq müəyyən edilməli və xərclərin idarəedilməsində əsas diqqət onların müəyyən edilməsinə yönəldilməlidir. Reallaşdırılmasına ciddi ehtiyac olan belə prioritet istiqamətlərə aşağıdakıları aid etmək olar:

- İcmal dövlət büdcəsində xərclərin mərkəzləşdirilmə səviyyəsinin müəyyən edilməsi (maliyyə resursları balansında mərkəzləşdirilmiş xərclərin ümumi xərc məbləğinə və ÜDM-ə faizlərlə nisbəti);
- Mərkəzi icra orqanları tərəfindən dövlət vəsaitlərinin yalnız qanunvericiliklə təsbit olunmuş və onlara verilmiş səlahiyyətlər həddində bölüşdürülməsi;
- Xərclərin sahə quruluşunun nəzərə alınması və onların cari və əsaslı xərclər üzrə bölüşdürülməsi;
- Cari xərclərin məsrəf elementləri və digər istiqamətlər üzrə qruplaşdırılması.

Bu məsələlərin həll edilməsi zamanı dövlətin büdcə siyasətinin orta və uzunmüddətli prioritetləri də əsas götürülməlidir. Belə ki, konkret dövrün tələbinə uyğun dövlət büdcəsi xərcləri sahəsində siyasətin hazırlanması daha çox büdcə xərclərinin təsnifləşdirmə səviyyəsindən asılıdır. Xərc təsnifatının elmi cəhətdən əsaslandırılması onların dəqiq planlaşdırılması üçün əlverişli şərait yaradır. Öz növbəsində büdcə xərclərinin iqtisadi səmərəsi daha çox onların planlaşdırılma metodikasının keyfiyyətindən asılıdır. Dövlət büdcə xərclərinin həcm və quruluşunu tənzimləməklə iqtisadiyyatın inkişaf tempinə və ölkədə makroiqtisadi sabitliyə təsir göstərmək imkanı qazanır. Bu zaman təbii ki, prioritet istiqamət kimi investisiya xərcləri və mütərəqqi texnologiyaların inkişafı ilə bağlı xərclər əsas götürülür.

Büdcə xərcləri sahəsində tarazlaşdırılmamış siyasətin həyata keçirilməsi büdcə kəsirinin əsassız olaraq artmasına və bununla da dövriyyədə pul kütləsinin çoxalmasına səbəb olur. Bunlar isə ölkə iqtisadiyyatında çox böyük arzuolunmaz nəticələrə gətirib çıxara bilər. Xüsusilə iqtisadiyyatda böhranların baş verdiyi və dövlət büdcəsinin gəlir hissəsinə əlavə vəsaitlərin cəlb olunması üzrə imkanların tükəndiyi hallarda, dövlət büdcəsinin xərclərinə münasibətdə tarazlaşdırılmamış siyasətin həyata keçirilməsi ölkədə ümumi makroiqtisadi vəziyyəti son dərəcə kəskinləşdirir. Keçmiş SSRİ və Avropa ölkələrinin təcrübəsi buna əyani sübutdur.

Dövlət büdcəsi xərclərinin tənzimlənməsinin ən vacib və makroiqtisadi sabitliyə birbaşa təsir göstərən istiqamətlərindən biri bu xərclərin hakimiyyət səviyyələri üzrə düzgün bölüşdürülməsidir. Hər bir dövlətdə xərclərin hakimiyyət səviyyələri üzrə bölüşdürülməsi məsələsinin həlli fərqli xüsusiyyətə malikdir. Lakin buna baxmayaraq büdcə islahatlarının həyata keçirilməsi və xərclərin hakimiyyət səviyyələri üzrə bölüşdürülməsi zamanı ümumi bir qanunauyğunluq meyli müşahidə olunur ki, onun tələbləri dövlət büdcəsi xərclərinin idarəedilməsində hökmən nəzərə alınmalıdır. Büdcə xərcləri mövcud qanunvericiliklə müvafiq hakimiyyət səviyyəsinə verilmiş səlahiyyətlərə qeyd-şərtsiz uyğun olmalıdır. Azərbaycanın büdcə sistemi Konstitusiya və «Dövlət büdcəsi haqqında» Azərbaycan Respublikasının qanunu ilə tənzimlənir.

Dövlət büdcəsi xərclərinin tənzimlənməsinin ən zəruri istiqamətlərindən biri də onun sahələr üzrə, həmçinin cari və əsaslı xərclər üzrə bölüşdürülməsidir ki, ölkədə mövcud olan makroiqtisadi sabitlik daha çox bu xərclərin nisbətindən asılıdır.

## 2. Dövlət büdcə xərclərinin müasir vəziyyətinin tədqiqi

Büdcə prosesi - mərkəzi və yerli büdcələrin tərtibi, baxılması, təsdiqi və hakimiyyət orqanlarının icrası məsələlərini əhatə edir. Büdcə prosesinin tərtib ardıcıllığı dörd mərhələdən ibarətdir.

Birincisi, büdcə layihəsinin hazırlanması, ikincisi, büdcənin quruluşuna baxılması və təsdiq edilməsi, üçüncüsü büdcə prosesinin icrası, dördüncüsü isə büdcənin icrası barədə hesabatın hazırlanması və təsdiq edilməsi.

Birinci mərhələdə büdcənin həcmi, vergi və pul-kredit siyasəti, vəsaitlərin istifadə istiqamətləri, büdcə kəsirinin örtülməsi və gəlirlərin büdcə sisteminin həlqələri arasında bölgüsü kimi məsələlər nəzərdə tutulur.

Dövlət büdcə layihəsinin hazırlanması üçün ilkin proseslər 6 aydan az olmayaraq əvvəl başlanır. Müvafiq layihəni dövlət icra orqanı - Maliyyə Nazirliyi tərtib edir. Öncədən büdcə layihəsi hazırlanarkən büdcənin təsirinin təmin edilməsi; maliyyə imkanlarının hökümətin sosial-iqtisadi inkişaf proqramları ilə əlaqələndirilməsi; vəsaitlərin xərclənməsində əsas istiqamətlərin müəyyənləşdirilməsi; büdcə kəsirinin örtülməsi üçün mənbələrin aşkar edilməsi təmin edilir.

Büdcə layihəsi hazırlanarkən Maliyyə Nazirliyi ilə digər nazirliklər arasında müzakirələrin, təkliflərin, tövsiyyələrin nəzərə alınması prosesi həyata keçirilir. Bəzən mübahisəli məsələlərin həll edilməsi üçün dövlət başçısının müdaxiləsi zəruri olur. Büdcə qərarları çox vaxt əvvəllər təsdiq edilmiş büdcələrin yerinə yetirilməsi, cari büdcənin icrası məlumatları nəzərə alınmaqla qəbul edilir. Məhz bundan sonra büdcə sənədləri hazırlanmağa başlanır.

İkinci mərhələ büdcə layihəsinin nəzərdən keçirilərək baxılması və təsdiq edilməsi proseslərini əhatə edir. Bu mərhələdə ali icraedici orqanın rəhbəri tərəfindən büdcə layihəsi qəbul olunduqdan sonra təsdiq edilmək üçün qanunverici orqana – parlamentə təqdim olunur. Büdcə layihəsinin Milli Məclisdə müzakirəsi çox böyük əhəmiyətə malikdir. Büdcənin parlamentdəki müzakirəsi büdcə ilə bağlı bir sıra vacib məsələlərin həllini üzə çıxarır.

Büdcənin icrası məsələləri büdcə layihəsinin üçüncü mərhələsini əhatə edir. Büdcənin icrasına təsdiq edilmiş gəlirlərin toplanması və xərclərin yönəldilməsi daxildir. Bizim ölkəmizdə isə bu dövr yanvarın 1-dən dekabrın 31-nə qədər olan müddəti əhatə edir. Büdcənin icrası barədə hesabat sənədlərinin hazırlanması və təsdiq edilməsi prosesinin bu mərhələsinin ən vacib dövrü sayılır.Büdcə vasitələrinin toplanması, onların saxlanılması, təyinatına uyğun yönəldilməsi sonda isə sahə üzrə uçot və hesabatın aparılması həlledici məsələdir. Buna çox vaxt kassa icrası da deyirlər. Büdcənin kassa icrası xəzinənin vahidliyi prinsipinə əsaslanır və bütün büdcə vəsaitləri Maliyyə Nazirliyinin Mərkəzi Bankdakı vahid hesabına daxil olur, bütün xərclər də elə həmin hesabdan istiqamətləndirilir.

Büdcə prosesinin dördüncü – sonuncu mərhələsi isə büdcənin icrası haqqında Maliyyə Nazirliyinin hesabatlarının hazırlanması və onun qanunverici orqan tərəfindən təsdiq edilməsidir. Bu mərhələ bütün ölkələrdə olduğu kimi, bizim respublikada da maliyyə ili başa çatdıqdan sonra həyata keçirilir.

Dövlət büdcəsi xərclərinin gəlirlərlə təmin olunmayan hissəsi - büdcə kəsirlərini formalaşdırır. Belə hallarda büdcə gəlirlərinin xərcləri üstələməsi baş verir. İqtisadi və yaxud siyasi böhran nəticəsində müxtəlif layihələrin maliyyələşdirilməsi üçün dövlət büdcə xərclərini artıra və yaxud azalda bilir.

Son illərdə dünyada gedən qlobal maliyyə-iqtisadi böhran prosesləri ölkəmizin dayanıqlığını və onun regional güc mərkəzi kimi formalaşdığını bir daha sübut etmişdir. Dünyanın aparıcı ölkələrində gedən kəskin maliyyə-iqtisadi böhranlarına baxmayaraq, Azərbaycanda makroiqtisadi sabitlik, iqtisadi artım, yoxsulluq səviyyəsinin azalması və əhalinin maddi rifah halının yüksəlməsi davam etmişdir.

2006-cı illə 2012-ci ili müqayisə etsək görərik ki, ÜDM 3,0 dəfə, qeyri-neft sektoru üzrə 3,3 dəfə, neft sektoru üzrə 2,6 dəfə artmışdır. Dövlət Neft Fondunun vəsaiti hesabına qeyri-neft sektorunun inkişaf etdirilməsi, yoxsulluğun azaldılması üzrə dövlət proqramları və tədbirlər həyata keçirilmiş və bunun nəticəsi olaraq iqtisadiyyatda sürətli artıma nail olunmuşdur. 2012-ci ildə Ümumi Daxili Məhsul (ÜDM) 2010-cu ilə nisbətən 2,2% artaraq 54,0 milyard manata çatmışdır.

2012-ci ilin dövlət büdcəsinin xərclərinin ümumi daxili məhsulda xüsusi çəkisi 32,3 % həcmində olmuş və 2011-ci ilin icrasına nisbətən 1,2 % çox olmuşdur. Büdcə xərclərinin əsas prioritetləri xərclərin sosial və investisiya yönümlüyünün təmin edilməsindən, dövlətin müdafiə qabiliyyətini gücləndirmək üçün tələb olunan maliyyə ehtiyatlarının yaradılmasından, regionların sosial-iqtisadi inkişafına dair tədbirlərin, sosial proqramların, xarici borc və öhdəliklərin təmin olunmasından və digər tədbirlərdən ibarətdir. Dövlət büdcəsinin strukturunun və icrası prosesinin təkmilləşdirilməsi, bu sahədə şəffaflığın və ünvanlılığın təmin edilməsi istiqamətində tədbirlər davam etdirilməlidir.

Büdcə xərclərinin əsas istiqamətləri sırasında mühüm yeri yenə də dövlət əsaslı vəsait qoyuluşları tutur. Bu məqsədlə büdcədən 2010-cu ildə 4,1 milyard manat, 2011-ci ildə 5,9 milyard manat, 2012-ci ildə 5,8 milyard manat vəsait ayrılmışdır. İnfrastruktur layihələrinə dövlət büdcəsindən ayırmaların dinamikasının yüksək templə artması müşahidə olunmaqdadır. Regionlarda müasir tələblərə cavab verən infrastruktur sahələri yaratmadan kiçik və orta sahibkarlığın, turizmin, aqrar sahənin və s. inkişafından danışmaq qeyri-mümkündür. Dövlət investisiyaları hesabına əhəmiyyətli sayılan infrastruktur, kommunal eləcə də sosial obyektlərin inşası və yenidən qurulması da məhz qeyd olunan məqsədlərin gerçəkləşdirilməsi baxımından vacibdir.

Dövlət büdcəsinin sosialyönümlü tədbirləri üzrə xərclərindən təhsil xərcləri 2006-cı ildə 479 milyon manat, 2008-ci ildə 980 milyon manat, 2010-cu ildə 1 milyard 181 milon manat, 2012-ci ildə isə 2010-cu ilə nisbətən 272 milyon manat artaraq 1 milyard 453 milyon manat olmuşdur. Təhsil xərclərinin ÜDM-də xüsusi çəkisi 2006-cı ildə 2,56%, 2008-ci ildə 2,44 %, 2010-cu ildə 2,78 %, 2012-ci ildə 2,69 % olmuşdur. Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər xərcləri 2006-cı ildə 67 milyon manat, 2008-ci ildə 140 milyon manat, 2010-cu ildə 168 milyon manat, 2012-ci ildə isə 2010-cu ilə nisbətən 73 milyon artaraq 241 milyon manat olmuşdur. Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər xərclərinin ÜDM-də xüsusi çəkisi 2006-cı ildə 0,36 % olmuş, 2008-ci ildə 0,35 % olmuş, 2012-ci ildə isə 0,45 % olmuşdur. Sosial müdafiə və sosial təminat xərcləri 2006-cı ildə 342 milyon manat, ÜDM-də xüsusi çəkisi 1,82 %, 2008-ci ildə 846 milyon manat, ÜDM-də xüsusi çəkisi 2,11 %, 2010-cu ildə 1 milyard 132 milyon manat, ÜDM-də xüsusi çəkisi 2,64 %, 2012-ci ildə isə 2010-cu ilə nisbətən 638 milyon manat artaraq 1 milyard 770 milyon manat olmuş, ÜDM-də xüsusi çəkisi 3,28 % olmuşdur. Elm xərcləri 2006-cı ildə 32 milyon manat, 2008-ci ildə 62 milyon manat, 2010-cu ildə isə 93 milyon manat, 2012-ci ildə isə 117 milyon manat olmuşdur. 2012-ci ildə elm xərclərinin ÜDM-də xüsusi çəkisi 0,22 % olmuşdur. Səhiyyə xərcləri 2006-cı ildə 162 milyon manat olmuş, 2010-cu ildə 429 milyon manat, 2012-ci ildə isə 609 milyon manat olmuşdur. Səhiyyə xərclərinin 2012-ci ildə ÜDM-də xüsusi çəkisi 1,13 % olmuşdur.

Sosial müdafiə və sosial təminatı xərcləri dövlət büdcə sistemində ən önəmli yer tutur. Dövlət bu sahələrdəki iqtisadi prosesləri tənzimləmək üçün əsas mənbə kimi büdcə sistemindən istifadə edir.

Sosial-mədəni tədbirlərə ayrılan büdcə xərcləri nəinki sosial, eləcə də iqtisadi əhəmiyyət kəsb edir. Ümumiyyətlə, sosial yönümlü xərclər əhalinin sosial ehtiyyaclarının: təhsil, tibbi xidmət, sosial müdafiə və s.ödənilməsinin maliyyə bazası olmaqla eyni zamanda əmək ehtiyatlarının keyfiyyət tərkibinin yaxşılaşmasına, elmi nailiyyətlərin istifadəsi əsasında əmək məhsuldarlığının yüksəldilməsinə, elmi-texniki tərəqqinin sürətləndirilməsinə, ictimai istehsalın artmasına fəal təsir göstərir.

İqtisadiyyatın müxtəlif sahələrində yeni iş yerlərinin yaradılması, məşğulluğun artırılması üçün şübhəsiz ki, müəyyən həcmdə maliyyə vəsaitləri tələb olunur. Bu vəsaitlər yalnız büdcədən ayrıldığından onun

ildən-ilə artırılması hər bir dövlətin apardığı iqtisadi siyasətin əsas istiqamətlərindəndir.

2013-cü il dövlət büdcəsinin xərcləri ümumi daxili məhsulun 35,3 faizini təşkil etməklə 19,8 milyard manat olmuşdur. 2012-ci illə müqayisədə 12,1 faiz, 2011-ci ilin faktiki icrasına nisbətən isə 28,7 faiz çox olmuşdur. Növbəti ildə də dövlət xərcləri üzrə struktur islahatlarının davam etdirilməsi, ölkənin müdafiə qüdrətinin daha da yaxşılaşdırılması, dövlət büdcəsindən maliyyələşən və maliyyə yardımı alan təşkilatlarda çalışan işçilərin əməkhaqlarının və bir sıra sosial ödənişlərin artırılması, yeni təşkilatların fəaliyyətə başlaması (Standartlaşdırma,Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanında Dövlət Metrologiya Xidməti, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanında Dövlət Akreditasiya Xidməti, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanında Texniki Tənzimləmə və Standartlaşdırma üzrə Dövlət Nəzarəti Xidməti, Azərbaycan Respublikası Alternativ və Bərpa olunan Enerji Mənbələri üzrə Dövlət Şirkəti, İqtisadi İnkişaf Nazirliyinin tabeliyində “Sumqayıt Kimya Sənayə Parkı” Məhdud Məsuliyyətli Cəmiyyəti, Azərbaycan Respublikasınm Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və bu Agentliyin “ASAN xidmət”mərkəzi və digər təşkilatlar), bəzi tədbirlərin (siyası partiyalar, Azərbaycan Respublikasının keçmiş Prezidentinin və onun ailə üzvlərinin təminatı), yeni dövlət proqramlarının maliyyələşdirilməsi, ölkədə baş vermiş və ehtimal olunan təbii fəlakətlərin və digər fövqəladə hallann nəticələrinin aradan qaldırılması və əvvəlcədən büdcədə nəzərdə tutulmayan tədbirlərin, keçmiş SSRI Əmanət Bankının Azərbaycan Respublikası Bankının Azərbaycan Respublikasının vətəndaşları olan əmanətçilərinə fərdi birdəfəlik ödəmələrin maliyyələşdirilməsi, ərzaq, dərman, invenrtar, cari təmir, dəftərxana və təssərrüfat malları və digər xərclər üzrə xərc normalarının orta respublika göstəricilərinə uyğunlaşdırılması, Sahibkarlığa Kömək Milli Fondunun, İpoteka Fondunun nizamnamə kapitalinin, “Avtomobil Yolları” Məqsədli Büdcə Fondunun xərclərinin artırılması və s.) və digər zəruri məsələlərin həlli üçün vəsaitin nəzərdə tutulması hesabına 2013-cü il dövlət büdcəsinin xərcləri artırılmışdır.

**Cədvəl 1.**

**Dövlət büdcəsi xərclərinin müqayisəsi (2012-2013-cü illər üzrə)**

| | | 2013-cü il proqnoz, min manatla | 2012-ci il proqnoz, min manatla | 2013/2012 faizlə |
|---|---|---|---|---|
| | **Xərclər cəmi** | **19 810 000** | **17 672 000** | **+12,1** |
| 1. | Ümumi dövlət xidmətləri | 1 802 038 | 1 179 887,4 | +52,7 |
| 1.1 | Elm xərcbri | 129 099,9 | 123 368,0 | +4,6 |
| 2. | Müdafiə | 1 528 582,6 | 1 407 312,4 | +8,6 |
| 3. | Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq | 1 081 796,2 | 964 253,8 | +12,2 |
| 4. | Təhsil | 1 530 365,7 | 1 511 537,1 | +1,2 |
| 5. | Səhiyyə | 666 276,4 | 662 709,3 | +0,5 |
| 6. | Sosial müdafiə və sosial təminat | 1 813 581,5 | 1 785 788,3 | +1,6 |
| 7. | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriya-lara aid edilməyən sahədə fəaliyyət | 288 101,7 | 254 778,0 | +13,1 |
| 8. | Mənzil və kommunal təsərrüfatı | 399 078,8 | 439 433,7 | -9,2 |
| 9. | Yanacaq və enerji xərcləri | 2 377,5 | - | - |
| 10. | Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi | 494 300,4 | 472 735,7 | +4,6 |
| 11. | Sənaye və tikinti xərcləri | 6 934 233,4 | 5 794 110,7 | +19,7 |
| 11.1 | Dövlət əsaslı vəsait qoyuluşu | 6 915 200,0 | 5 774 100,0 | +19,8 |
| 11.2 | Digər xərclər | 19 033,4 | 20 010,7 | -4,9 |
| 12. | Nəqliyyat və rabitə | 111 677,2 | 87 911,0 | +27,0 |
| 13. | iqtisadi fəaliyyətlə bağlı sair xərclər | 275 775,2 | 185 866,2 | +48,4 |
| 14. | Əsas bölmələrə aid edilməyəıı xidmətlər | 2 881 815,4 | 2 925 676,4 | -1,5 |

**Mənbə:** AR Maliyyə Nazirliyinin məlumatları

Dövlət büdcə xərcləri cari və əsaslı xərclərdən ibarətdir. Cari xərclərə - əmək haqqı, əmək haqqına əlavə pensiya, malların satın alınması, faiz üzrə ödənişlər, qrantlar, subsidiyalar, xidmət üzrə xərclər və müxtəlif sosial müavinətlər və ödənişlər daxildirsə, əsaslı xərclər – kapital qoyuluşlarını, əsas vəsaitlərin və səhmlərin alınmasını, kreditlər

üzrə borcların və faizlər üzrə xərclərin ödənilməsini, həmçinin layihələrdə pay iştirakını əhatə edir.

Sosial-mədəni tədbirlərə yönələn büdcə xərcləri nəinki sosial, eləcə də iqtisadi əhəmiyyət kəsb edir. Büdcə xərcləri əhalinin sosial ehtiyaclarının: təhsil, tibbi xidmət, sosial müdafiə və s. ödənilməsinin əsas maliyyə bazası olmaqla həmin xərclər eyni zamanda əmək ehtiyyatlarının keyfiyyət tərkibinin yaxşılaşmasına, elmi nailiyyətlərin istifadəsi əsasında əmək məhsuldarlığının yüksəldilməsinə, elmi-texniki tərəqqinin sürətləndirililməsinə, ictimai istehsalın artmasına fəal təsir göstərir.

Büdcə xərcləri müvafiq büdcə təsnifatına uyğun olaraq təsdiq edilmiş büdcə ayırmaları həddində investisiya, innovasiya və digər sahələrin maliyyələşdirilməsinə yönəldilir. Hər ilin dövlət büdcəsində təsdiq edilmiş ayırmalar həmin məqsədlər üçün xərclərin ən yüksək səviyyəsini göstərir. İl ərzində faktiki xərclər bu məbləğdən çox ola bilməz. Hər ilin dövlət büdcəsi üzrə təsdiq edilmiş ayırmaların icra müddəti ilin sonunda başa çatır.

Dünyanın inkişaf etmiş ölkələrinin təcrübələrinə əsaslanaraq dövlət səviyyəsində əsaslı vəsait qoyuluşunun quruluşunun təkmilləşdirilməsi və ondan səmərəli istifadəyə nəzarətin artırılması, dövlət büdcəsində dövlət investisiya xərcləri üzrə bölgüsünün vahid prinsiplərinə və prioritetlərinə nail olunması təyin olunmalı, investisiya siyasəti ilə regional inkişaf proqramları arasında əlaqə möhkəmləndirilməlidir. Məhz bu zaman iqtisadiyyatda struktur islahatların uğurla reallaşdırılması, büdcə gəlirlərinin artırılması, ayrı-ayrı büdcə xərcləri üzrə sosial və investisiya istiqamətliliyinin təmin olunması nəticəsində büdcə xərclərinin şəffaflığının və səmərəliliyinin yüksəldilməsinə nail olunacaqdır.

### 3. Dövlət büdcə xərclərinin formalaşması və istifadəsinin perspektiv istiqamətləri

Büdcə xərclərinin səmərəliliyinin müəyyən edilməsi zəruri faktorlardan hesab olunur. Belə ki, büdcə resursları dövlətin əlində cəmləşdiyindən, ayrı-ayrı proqram xərclərinin səmərəliliyinin qiymətləndirilməsində müəyyən tələbatlar yaranır. Büdcə layihəsi üzrə nəzərdə tutulan proqramlarda, daha çox iqtisadi səmərə əldə ediləcəyi planlaşdırıldığından daha çox maliyyə dəstəyi yönəldilir.

Bu zaman qeyri-səmərəli xərclərin azaldılması və ixtisarı nəzərdə tutulur. Ümumiyyətlə, xərc proqramlarının nəticəliyinin qiymətlləndirilməsi bir sıra səbəblərdən çox mürəkkəbdir. Qeyd etmək lazımdır ki, büdcə xərclərinin səmərəliliyi həm iqtisadi, həm də sosial tərkibliliyindən də

asılıdır. Məsələn, dövlət siyasətinin formalaşdırılmasında mühüm əhəmiyyətlilik kəsb edir. Əgər təhsilin keyfiyyətinin yaxşılaşdırılmasından danışdıqda ayrı-ayrı göstəricilərin qiymətləndirilməsi zəruridir. Bura ali məktəblərin tələbə qəbulu, buraxılışı, ayrı-ayrı ixtisaslar üzrə fərqlənmə diplomlarının miqdarı müdafiə etmiş doktorantların işə düzəlmə səviyyəsi və s. Lakin bu proseslər təhsililn keyfiyyətini dolayı yolla səciyyələndirir.

Büdcə hər bir dövlətin gözlənilən gəlir və xərclərinin müəyyən müddət üçün tərtib olunan siyahısı, cədvəli kimi nəzərdə tutulur. Büdcə ölkədə istehlakın həcmini və quruluşunu xarakterizə edən ən mühüm amillərdəndir. Büdcənin səmərəlilik indeksinin hesablanması, onun səmərəliliyinin artırılması mexanizminin düzgün təhlilindən, alınan nəticənin gələcəkdə inkişaf etdirilməsindən, əhalinin həyat səviyyəsinin yüksəlməsi üçün dövlətin tətbiq etdiyi idarəçilik metodunun təkmilləşdirilməsindən çox aslıdır.

Dövlətin çoxsaylı xərcləri cari məsələlərin həllinə deyil, uzunmüddətli səmərəliliyin əldə olunmasına yönəlmişdir. Məsələn, insan potensialının inkişafına yönəlmiş xərclər (təhsil, səhiyyə, mədəniyyət və incəsənət üzrə) uzunmüddətli olaraq perspektivə qoyulmuş hesab olunur. Müvafiq proqramların maliyyələşdirmə həcminin müəyyən edilməsində ilk növbədə uzunmüddətli plan üzrə onun səmərəliliyinin qiymətləndirilməsi zəruridir.

Məlum olduğu kimi dövlət tərəfindən iqtisadiyyatın birbaşa tənzimlənməsi büdcə-vergi siyasəti alətləri vasitəsilə həyata keçirilir. Bu siyasətin son məhsulu kimi dövlət büdcəsi və onun xərcləri həmişə sosial iqtisadi maraqların daşıyıcıları olan müxtəlif təbəqələr arasında tarazlığı əks etdirir. İqtisadiyyatın inkişaf səviyyəsindən və onun mövcud imkanlarından asılı olmayaraq istənilən ölkədə büdcə xərclərinin səmərəli idarəolunması bütün dövrlərdə ən vacib probemlərdən biri hesab edilir. Bu hər şeydən əvvəl ölkənin sosial həyatının və ayrı-ayrı sahələrin fəaliyyəti və inkişafının dövlət tərəfindən maliyyələşdirilməsi üçün ayrılan vəsaitlərin real tələbata uyğun olmaması ilə bağlıdır. Ona görə də xərclərin idarəedilməsi bütövlükdə dövlətin, o cümlədən dövlət büdcəsinin qarşısında duran vəzifələrə uyğun həyata keçirilməlidir. Büdcə xərcləri dedikdə dövlətin və yerli özünüidarəetmə orqanlarının vəzifə və funksiyalarının yerinə yetirilməsinə yönəldilən pul vəsaiti başa düşülür. Müasir şəraitdə ümumi xərc həcminin müəyyən edilməsindən onların bölüşdürülməsi və maliyyələşdirilməsinədək bütün mərhələlərdə idarə-

etmə qərarlarının qəbul edilməsi üçün lazım olan resursların məhdudluğu xərclərin idarəedilməsi prosesi daha da mürəkkəbləşmişdir.

Ümumiyyətlə xərclərin idarəedilməsi prosesi aşağıdakı mərhələləri əhatə etməlidir:

- Əsaslandırılmış büdcə siyasətinin və onun ali məqsədinin, habelə onların reallaşdırılması üçün lazım olan resursların müəyyən edilməsi;
- Büdcə siyasətinin səmərəli həllini təmin etmək məqsədilə resursların optimal bölüşdürülməsi;
- Konkret məsələlərin daha səmərəli üsullarla həllinin təşkil edilməsi.

Təcrübədə bu məsələlər büdcənin tərtibi və icrası prosesində və ya digər səviyyədə nəzərə alınır. Eyni zamanda xərclərin idarə edilməsi mədaxil və məxaric üzrə imkanların nəzərə alınması, dövlətin malik olduğu resursların bölüşdürülməsi, onlardan səmərəli istifadə edilməsi, vacib idarəetmə qərarlarının qəbul edilməsini təmin edəcək informasiya sisteminin yaradılması kimi məsələlərin həll olunduğu proses kimi də baxmaq olar.

Bütövlükdə büdcə xərcləri 4 qrup üzrə təsnifatlaşdırılır: idarəetmə xərcləri, müdafiə və hüquq mühafizə orqanlarının saxlanılması xərcləri, sosial xərclər, dövlətin iqtisadi siyasətinin həyata keçirilməsi ilə bağlı xərclər. Büdcə quruculuğunun inkişafının istənilən dövründə xərclərin təsnifatlaşdırılması zamanı təkcə xərclərin ümumi həcminin deyil, həm də onların səmərəli tərkibi və strukturunun müəyyənləşdirilməsi böyük əhəmiyyət kəsb edir. Yalnız dövlət xərclərinin bu parametrlərini müəyyən etməklə dövlət tərəfindən qoyulmuş vəzifələrin öhdəsindən layiqincə gəlmək olar.

Büdcə xərclərinin strukturu tarixən konkret şəraitin tələbatına uyğun müəyyən edilmişdir. Məsələn, I və II Dünya müharibələri zamanı hərbi xərclərin məbləği kəskin artmışdır. Sonralar isə büdcə xərclərinin artmasına iqtisadi və sosial amillər ciddi təsir göstərdi. Inkişaf etmiş ölkələrdə bu amillər dövlət büdcəsinin xərclərinin artmasının əsas səbəbi kimi çıxış edirlər. Hazırda Dövlət büdcəsi xərclərinin ÜDM-də xüsusi çəkisi ABŞ-da 30%, Yaponiyada- 33%, Almaniyada - 46%, Böyük Britaniyada - 43%, Fransa və İtaliyada – 50%, Kanadada – 44%, İsveçdə - 60% təşkil edir.

Hazırki şəraitdə inkişaf etmiş ölkələrin dövlət xərclərinin strukturu sosial proqramların xeyrinə dəyişir. Demək olar ki, əksər ölkələrdə büdcə xəclərinin strukturunda birinci yeri sosialyönümlü:

pensiya və təqaüd, təhsil, səhiyyə, mədəniyyət və s. kimi xərclər tutur. Dövlətin həyata keçirdiyi iqtisadi və ya büdcə siyasətinin başlıca məqsədləri- mövcud sosial-iqtisadi durumun stabilləşdirilməsi, möhkəmləndirilməsi və dəyişən şəraitə uyğunlaşdırılması məhz bunlarda özünü büruzə verir. Bu xərclər bazar iqtisadiyyatına xas olan sosial qruplar arasındakı kəskin fərqləri ciddi surətdə yumşaltmaq üçün şərait yaratmışdır. Məsələn, ABŞ-da hərbi xərclər – 28%, təsərrüfat xərcləri – 6,7%, dövlət borcu üzrə xərclər - 13,7% təşkil edirsə, sosial sahəyə yönələn xərclər ümumi xərclərin 47,3%-ni təşkil edir. Digər ölkələrdə isə sosial sahəyə yönəldilən vəsaitlər ümumi dövlət xərclərinin təqribən 50%-ni təşkil edir.

Büdcə xərcləri büdcənin tərtibi və təsdiqi zamanı ümumi həcmi dəqiq müəyyən edilməklə planlaşdırılan və əvvəlcədən nəzərdə tutula bilməyən xərclərə bölünür. Sonuncu məqsədlərə vəsait ayrılmasını təmin etmək məqsədilə adətən dövlət büdcəsində ümumi xərcin 3-5%-ni təşkil edən hökumətin xüsusi ehtiyat fondu yaradılır və daha çox qabaqcadan planlaşdırılması mümkün olmayan tədbirlərin maliyyələşdirilməsinə (təbii fəlakət, sel və daşqınlar nəticəsində dəymiş ziyanın ödənilməsi və s.) istifadə olunur.

Hazırki şəraitdə inkişaf etmiş ölkələrin dövlət xərclərinin strukturu sosial proqramların xeyrinə dəyişir. Demək olar ki, əksər ölkələrdə büdcə xəclərinin strukturunda birinci yeri sosialyönümlü: pensiya və təqaüd, təhsil, səhiyyə, mədəniyyət və s. kimi xərclər tutur. Dövlətin həyata keçirdiyi iqtisadi və ya büdcə siyasətinin başlıca məqsədləri- mövcud sosial-iqtisadi durumun stabilləşdirilməsi, möhkəmləndirilməsi və dəyişən şəraitə uyğunlaşdırılması məhz bunlarda özünü büruzə verir. Bu xərclər bazar iqtisadiyyatına xas olan sosial qruplar arasındakı kəskin fərqləri ciddi surətdə yumşaltmaq üçün şərait yaratmışdır. Məsələn, ABŞ-da hərbi xərclər – 28%, təsərrüfat xərcləri – 6,7%, dövlət borcu üzrə xərclər - 13,7% təşkil edirsə, sosial sahəyə yönələn xərclər ümumi xərclərin 47,3%-ni təşkil edir. Digər ölkələrdə isə sosial sahəyə yönəldilən vəsaitlər ümumi dövlət xərclərinin təqribən 50%-ni təşkil edir.

Xərclərin səmərəliliyinin təmin olunmasında nəzərdə tutulmayan proseslərin qeydə alınması mütləqdir və onları nəzərə almaq lazımdır. Məhz buna görə də bu cür proseslərin proqnozlaşdırılması bir qədər mürəkkəbdir.

Xərclərin səmərəliliyinin qiymətləndirilməsində dəyişkən gəlirlərin mövcudluğu əsas mərkəzi problemlərdən hesab olunur. Dəyişkən gəlirlər dedikdə xərcləri proqram üzrə nəzərdə tutulanlar deyil, digər

şəxslər əldə edirlər. Məsələn, bunu aztəminatlı ailələrə yardımların ödənişləri misalında nəzərdən keçirə bilərik. Müvafiq xərclər yaşayış minimumundan az gəlirlərə malik vətəndaşların vəziyyətinin yaxşılaşdırılmasına yönəldilir. Adətən nəzərdə tutulan xərclər (pul və qeyri-pul formasında) üzrə xeyiri bəzən nəzərdə tutulmayan şəxslər də əldə edə bilir. Nəticədə yoxsul ailələrin gəlirlərinin artımı nəticəsində minimum yaşayış məhsullarına (qida məhsulları, dərman, ucuz ayaqqabı və geyinmə) tələbat artır. Nəticədə bu cür məhsullar istehsal edən şirkətlərin əlavə gəlir əldə etmək şansları artır. Bu zaman xərcləri paylayan dövlət təşkilatları fayda əldə edirlər. (resursların bölgüsü üzrə) və onların dövlət mövqeyi güclənir. Ümumiyyətlə, sosial proqramların genişlənməsi siyasətçilərə də xeyirlidir, çünki onlar öz seçiciləri arasında nüfuzlarını artırırlar. Əgər xərclər proqramı dəyişkən gəlirlərlə daha çox bağlıdırsa, bu onun qeyri-səmərəliliyini göstərir.

Xərclər proqramının səmərəliliyinin qiymətləndirilməsi məhdudlaşdırılmış büdcə resurslarının bölgüsünün həyata keçirilməsi üçün də zəruridir. Ümumi seçkilər zamanı qeyri-müəyyənlik şəraitində universal qərarların qəbul olunması mexanizmindən istifadə edirlər. Seçki təbliğatının həyata keçirilməsi zamanı vətəndaşlar ayrı-ayrı siyasi qüvvələrə, hansı ki, dövlət hakimiyyət orqanlarında təmsil olunacaqlar, onların irəli sürdükləri proqramları nəzərə alaraq addımlar atırlar. Dövlət seçki orqanları dövlət siyasətinin həyata keçirilməsi zamanı seçicilərin maraqlarını təmin etməklə, eyni zamanda büdcə xərclərinin strukturunu da təsdiq edirlər.

Büdcə xərclərinin səmərəliliyini təmin etmək üçün bir sıra şərtlərin yerinə yetirilməsi zəruridir. Bu zaman proqramlar ictimai-əhəmiyyət daşımaqla yanaşı bir qədər maksimum dəqiq olmalıdır. Müvafiq proqramların seçimi müsabiqə əsasında həyata keçiriləcəkdir. Müsabiqələrin reallaşdırılması şəffaf olmaqla yanaşı, dəqiq müəyyənləşdirilmiş olmalıdır.

Neftin satışından daxil olan vəsaitin əsas hissəsi Neft fondunda cəmləşir. Fondun qarşısında qoyulan əsas vəzifə neft sazişlərinin həyata keçirilməsindən, habelə fondun fəaliyyətindən əldə olunan vəsaitin yığılmasını və səmərəli idarə olunmasını təmin etməkdir. Bundan başqa, fondun qarşısında ölkə iqtisadiyyatını artan xarici valyuta daxilolmalarının mümkün mənfi təsirlərindən qorumaq (manatın kəskin bahalaşması və yerli istehsalın rəqabət qabilliyətinin pisləşməsi), makroiqtisadi tarazlığı təmin etmək və maliyyə intizmına xələl gətirməmək öhdəliyi durur. Fondun valyuta vəsaiti  makroiqtisadi sabitliyin qorunub saxlanması şərti ilə

xüsusi əhəmiyyət kəsb edən sosial və infrastruktur yönümlü layihələr üçün istifadə olunur.

Neft fondunun vəsaitləri hasilatın pay bölgüsü sazişlərinə uyğun olaraq Azərbaycanın payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlər, bonuslar, karbohidrogen ehtiyyatlarının işlənilməsi ilə əlaqədar sərmayədarlar tərəfindən ödənişlər, dividentlər, neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən, investorlar tərəfindən verilən aktivlərdən, fondun aktivlərinin yerləşdirilməsindən və idarə olunmasından əldə edilən gəlirlər, qrantlar və təmənnasız yardımlar və qanunvericiliyə uyğun olaraq digər gəlirlər və daxilolmalar hesabına formalaşır. Aşağıdakı cədvəldən göründüyü kimi fondun gəlirlərinin həcmi 2003-cü ilə nisbətdə 38,3 dəfə artaraq 364,1 mlrd. manatdan 2012-ci ildə 13,9 mlrd. manata yüksəlmişdir. Fond gəlirlərinin mədaxil mənbələri üzrə strukturunun təhlili göstərir ki, 2003-cü ildə gəlirlərin 74,5%-i xam neftin satışından alındığı halda, müvafiq göstərici 22,8 faiz artaraq 2012-ci ildə isə 97,3%-ə bərabər olmuşdur.

**Cədvəl 2**

**Neft fondunun gəlirləri və xərcləri ( mln. manat)**

| | **2003** | **2005** | **2006** | **2007** | **2008** | **2010** | **2011** | **2012** | **CƏMİ:** |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Gəlir-lər** | 364,1 | 660,1 | 985,9 | 1886,2 | 11864,7 | 13088,5 | 15628,3 | 13927,5 | 58405,3 |
| **Xərc-lər** | 236,0 | 233 | 981,4 | 1061,2 | 4291,8 | 6386,6 | 9606,6 | 10544,0 | 33340,6 |

**Mənbə:** AR Dövlət Neft Fondu (oilfund.az)

Aparılan təhlil göstərir ki, bütövlükdə 2003-2012-ci illər ərzində fonda daxil olan vəsaitlərin həcmi 58,4 mlrd. manata bərabər olmuşdur. Vəsaitlərin mənbələri üzrə strukturunun tədqiqi göstərir ki, təhlil edilən dövrdə gəlirlərin 95,4%-i mənfəət neftin satışından, 2,1%-i fond vəsaitlərin idarə edilməsindən, 2,1%-i neftin ixrac qiyməti ilə topdansatış qiyməti arasındakı fərqdən, qalan hissəsi isə digər gəlir mənbələrindən əldə edilmişdir.

Artıq qeyd etdiyimiz kimi fondun gəlirlərinin bir hissəsi gələcək nəsillər üçün ehtiyyat vəsaitin formalaşdırılmasına, digər hissəsi isə onun xərclərinin maliyyələşdirilməsinə yönəlmişdir. Qeyd edək ki, 2003-cü ildə gəlirlərin 0,4%-i xərclərə yönəldiyi halda, müvafiq göstərici 61,2 faiz artaraq 2012-ci ildə 61,5%-ə yüksəlmişdir. Fondun xərcləri 2003-cü ilə nisbətdə 44,7 dəfə artaraq 2012-ci ildə 10,5 mlrd. manata bərabər

olmuşdur. Fondun vəsaitlərinin xərclənməsi aşağıdakı istiqamətlər üzrə həyata keçirilir.

1) Dövlət büdcəsinə transfert;
2) Sosial layihələrin maliyyələşdirilməsi;
3) İnfrastruktur layihələrin maliyyələşdirlməsi;
4) İnsan kapitalının inkişaf etdirilməsi;
5) Fondun idarə eldilməsi ilə bağlı xərclər.

Fond xərclərinin tərkibində büdcəyə transfetlər üstün çəkiyə malikdir. 2003-cü ildə 100 mln. manat, 2011-ci ildə isə 9 mlrd. manat, 2012-ci ildə isə 9,9 mlrd. manat fonddan dövlət büdcəsinə transfert edilmişdir ki, bu da fondun ümumi xərclərini 2003-cü ildə 42,4%-ni, 2011-ci ildə isə 93,7%-ni, 2012-ci ildə isə 89,1 %-ni təşkil etmişdir.

Dövlət xərclərinin səmərəli idarəedilməsi və onun keyfiyyətcə yeni səviyyəyə yüksəldilməsi büdcə vəsaitlərindən istifadənin səmərəliliyinin artırılmasını, sosialyönümlü xərclərin keyfiyyətinin yüksəldilməsini büdcə subsidiyaları və dotasiyalarının optimallaşdırılmasını nəzərdə tutur. Əsas məsələ dövlətin büdcə siyasətinin reallaşdırılmasına imkan verən dövlət borcu və faiz ödənişlərindən başqa digər büdcə xərclərinin xüsusi çəkisinin artırılmasıdır. Perspektivdə dövlət büdcəsi xərclərinin artırılması imkanı əsasən üç amillə müəyyən ediləcəkdir: Büdcədə vergilərin yığım səviyyəsinin yüksəldilməsi, dövlət borcuna xidmətin həcminin azaldılması, daxili və xarici xalis borclanmasının minimuma endirilməsi. Bütün bu parametrlərin hamısının nəzərə alınması zəruriliyi dövlət xərclərinin sürətlə artırılması imkanını əhəmiyyətli dərəcədə məhdudlaşdırır. Ona görə də xərclər sahəsində dövlət siyasəti büdcə təxsisatlarının optimal həcmi və strukturu nəzərə alınmaqla həyata keçirilməli, sosial-iqtisadi inkişafın prioritet istiqamətlərinin reallaşdırılması təmin olunmalıdır.

**Dissertasiya işinin əsas müddəaları, əldə olunan nəticə və təkliflər dərc olunmuş aşağıdakı işlərdə öz əksini tapmışdır**

1. X.T. Məmmədov "Dövlət büdcəsinin gəlir və xərclərinin strukturunun nəzəri təhlili". Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun elmi əsərlər toplusu № 1, Bakı, 2009. 0,4 ç.v.

2. X.T. Məmmədov "Büdcə kəsirinin bir sıra problemləri" Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Aqrar Elm Mərkəzi. Azərbaycan Elmi-tədqiqat kənd təsərrüfatının iqtisadiyyatı və təşkili institutunun elmi əsərləri. № 4, Bakı, 2009. 0,1 ç.v.

3. X.T. Məmmədov "Azərbaycanın sosial-iqtisadi inkişafında maliyyə-büdcə təminatı məsələləri". Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun elmi əsərləri. № 2, Bakı, 2010. 0,4 ç.v.

4. X.T. Məmmədov "Maliyyə-büdcə sisteminin işlənilməsi və ona nəzarətin təkmilləşdirilməsi". Bakı Biznes Universiteti, Audit jurnalı №4, Bakı 2010. 0,5 ç.v.

5. Мамедов Х.Т. "Совершенствование бюджетных отношений на современном етапе". Современные аспекты экономики. Sankt-Peterburq № 1,(149)2010. 0,5 ç.v.

6. X.T. Məmmədov "Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasında dövlət büdcəsinin rolu". Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutu. XXI-ci əsr jurnalı. Bakı, № 147-148, 2010. 0,5 ç.v.

7. X.T.Məmmədov "Dövlət büdcə mexanizminin təhlili". Nazirlər Kabinetinin "İqtisadiyyat və Həyat" jurnalı. № 6-7, Bakı,2010. 0,4 ç.v.

8. X.T. Məmmədov "Dünya maliyyə-iqtisadi böhranı şəraitində dövlət büdcəsi xərclərinin səmərəli istifadəsi məsələləri". Elmi-nəzəri konfrans. Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu , Bakı, 2010. 0,1 ç.v.

9. X.T. Məmmədov "Azərbaycanın büdcə sisteminin xərcləri haqqında". Akademik Z.Səmədzadənin 70 illiyinə həsr olunmuş beynəlxalq konfrans. Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri" AMEA-nın İqtisadiyyat institutu, Azərbaycan İqtisadçılar İttifaqı, Beynəlxalq İqtisadçılar İttifaqı, Azərbaycan Dövlət İqtisad Universiteti. Bakı,2010. 0,1 ç.v.

10. X.T. Məmmədov "Milli iqtisadiyyatın innovasiyalı inkişafı istiqamətində maliyyə innovasiya sisteminin rolu". "Azərbaycan Respublikasında innovasiya yönümlü iqtisadi inkişafın problemləri və onların həlli yolları" mövzusunda Respublika elmi konfransı. Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu, Sumqayıt Dövlət Universiteti. Sumqayıt,2010. 0,1 ç.v.

11. X.T.Məmmədov "Azərbaycanın maliyyə-büdcə sisteminin təkmilləşdirilməsi istiqamətləri" İqtisadi artımın intensiv inkişaf problemləri. Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu, Azərbaycan Kooperasiya Universiteti. Bakı, 2010. 0,2 ç.v.

12. X.T. Məmmədov "Azərbaycanın büdcə sisteminin quruluşu və xərcləri" . "Qlobal maliyyə böhranı və dövlət idarəetmə sistemində

antiböhran siyasət: Dünya təcrübəsi və Azərbaycan modeli” mövzusunda Beynəlxalq elmi-praktiki konfrans. Bakı-2010. 0,1 ç.v.

13. X.T. Məmmədov ” Regionların sosial-iqtisadi inkişafında maliyyə-büdcə siyasətinin rolu”. Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı: problemlər inkişaf meylləri mövzusunda Respublika elmi-praktiki konfransın materialları. Bakı, 2010. 0,1 ç.v.

14. X.T. Məmmədov “Sosial iqtisadi inkişafın təmin olumasında maliyyə innovasiya sisteminin rolu”. “İnnovasiyalı inkişafın sosial-iqtisadi problemləri” mövzusunda Beynəlxalq elmi-praktiki konfrans. Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu. Bakı, 2010. 0,1 ç.v.

15. X.T. Məmmədov “Azərbaycan Respublikasında iqtisadi inkişafın təmin olunmasında maliyyə-büdcə sisteminin rolu” . Milli İqtisadiyyatın modernləşməsi: mövcud vəziyyət və gələcək perspektivlər” mövzusunda elmi-praktiki konfrans. AMEA-nın İqtisadiyyat institutu, İİETİ. Bakı, 2011 0,4 ç.v.

**Хагани Тагир оглы Мамедов**

## Направление усовершенствования формирования государственных бюджетных расходов.

При бюджетной системе, как доходы, так и его расходы должны отвечать на определенные условия. В отличие от доходов направления (структуры) расходов более динамичным измерением. Например: при изменении экономической и политической остановки в стране, бюджетные расходы могут, приведены в соответствии с интересами военная, экономическо-политические и социальные задач. И еще надо отметить, что из-за неразрывной связи управлением бюджетных расходов и государственных доходов использование бюджетных расходов по эффективному назначению является обязательным. В определенные периоды в зависимости от социально-экономических задач государства в составе и структуре бюджетных расходов наблюдаются определенные изменения. Вопросы усовершенствования формирований государственных бюджетных расходов являются актуальными, имеют важное научное значение.

В вводной части обоснованы актуальность проблемы научная новизна и практическое значение исследование, а так же определены цели, задачи, объекты, предмет, теоретические и методологические основы исследования.

В I главе, которая называется «Научная методологические основы формирования государственная бюджетных расходов» рассмотрены классификации функции, механизмы действия, основы, а так же вопросы урегулирования государственных бюджетных расходов.

II глава – «Исследование современного положения государственных бюджетных расходов в Азербайджане» посвящена вопросам о современном положении государственных бюджетных расходам и направлений их использования.

III глава – “Формирование государственных бюджетных расходов и перспективное направления их использования» рассказывает о путях увеличения эффективности бюджетных расходов, вопросы обеспечения экономического развития и т.д.

В конце исследования предметы ряд рекомендаций, имеющие научное и практическое значение.

**Khagani Tahir oglu Mammadov**

## The perfection directions of formation state budget`s expences

Budget system as a incomes and its expenses must be to adapt to modern condition.In difference from incomes direction (structure) of expenses are most dynamic. For example, when exchange of economical and political condition in country, budget expenses maybe to adapt interest of millitary, economic-political and social tasks. To manage connection with budget expenses and state incomes by using budget expenses are obligatory.In different period depending on social-economic tasks of state to observe exchange in structure of budget expenses. The problems perfection of forming state budget expenses are very actual by scientific side in the integration period.

In introduction the problem urgency proved, the purpose and tasks, object and tasks, theoretical and methodological bases of research are formulated, scientific novelty and the practical importance is proved.

I chasten – "Scientific – methodical bases of formation state budget expenses" classification of state budget expenses, its functions, activity mechanisms, buses of state budget expenses, regulation state budget expenses and etc. problems re considered.

II chapter – "The analyze modern condition of state budget expenses in Azerbaijan" modern condition of state budget expenses, directions of using state budget expenses. And etc. are considered.

III chapter – "The formation state budget expenses and its using of perspective directions" increasing budget expenses, providing economic development and etc. problems are considered.

In the conclusion are given the recommendations of scientific theoretical and practical meanine.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ**
**ЭКОНОМИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

На правах рукописи

**МАМЕДОВ ХАГАНИ ТАГИР ОГЛЫ**

# НАПРАВЛЕНИЕ УСОВЕРШЕНСТВОВАНИЯ ФОРМИРОВАНИЙ ГОСУДАРСТВЕННЫХ БЮДЖЕТНЫХ РАСХОДОВ

**Специальность: 5301.01 – Внутренняя фискальная политика и государственное финансирование**

## АВТОРЕФЕРАТ

диссертации по присуждению научной степени доктора философии по экономике

**БАКУ - 2014**